İPƏK YOLU, No.4, 2025, səh.237-245
https://doi.org/10.30546/SI.2025.4.6.578

# SÜNİ İNTELLEKTİN ƏDƏBİ YARADICILIQDAKI ROLU: ELMİ, HÜQUQİ VƏ TƏDRİS ASPEKTLƏRİ

**Gülnar Rzayeva, Aygün Qasımova**

Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: gulnar.rzayeva@au.edu.az, aygun.gasimova@au.edu.az

**Xülasə.** Məqalədə süni intellektin ədəbi yaradıcılıqdakı rolu araşdırılmışdır. Generativ modellərin imkanları və məhdudiyyətləri göstərilmiş, "hibrid müəlliflik" modeli, müəlliflik hüququ və estetik dəyər məsələləri vurğulanmışdır. Hammond, Manovich və Qudvinin yanaşmaları əsasında estetik, hüquqi, ideoloji aspektlər və gələcək tədqiqat istiqamətləri təhlil olunmuşdur.

**Açar sözlər:** Süni intellekt, ədəbi yaradıcılıq, generativ modellər, hibrid müəlliflik, metodologiya.

**THE ROLE OF ARTIFICIAL INTELLIGENCE IN LITERARY CREATIVITY: SCIENTIFIC, LEGAL AND PEDAGOGICAL ASPECTS**

**Gulnar Rzayeva, Aygun Gasimova**
*Azerbaijan University, Baku, Azerbaijan*

**Abstract.** The article examines the role of artificial intelligence in literary creativity. It highlights the potential and limitations of generative models, emphasizing "hybrid authorship", copyright and aesthetic value. Drawing on the views of Hammond, Manovich and Goodwin, it explores aesthetic, legal and ideological aspects while outlining future directions in AI and literature.
**Keywords:** Artificial intelligence, literary creativity, generative models, hybrid authorship, methodology.

**РОЛЬ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА В ЛИТЕРАТУРНОМ ТВОРЧЕСТВЕ: НАУЧНЫЕ, ПРАВОВЫЕ И ПЕДАГОГИЧЕСКИЕ АСПЕКТЫ**

**Гульнар Рзаева, Айгюн Гасымова**
*Университет Азербайджан, Баку, Азербайджан*

**Резюме.** Статья рассматривает роль искусственного интеллекта в литературном творчестве. Подчеркиваются возможности и ограничения генеративных моделей, акцентируется внимание на "гибридном авторстве", авторском праве и эстетической ценности. На основе подходов Хаммонда, Мановича и Гудвина анализируются эстетические, правовые и идеологические аспекты, а также обозначаются перспективные направления исследований.
**Ключевые слова:** Искусственный интеллект, литературное творчество, генеративные модели, гибридное авторство, методология.

## 1. Giriş

XXI əsrin əvvəllərindən etibarən texnologiyanın, xüsusilə də süni intellektin (Sİ) sürətli inkişafı sənaye və iqtisadi sahələrlə yanaşı, humanitar və bədii sahələrdə də ciddi dəyişikliklərə yol açmışdır. Ədəbiyyat sahəsi bu dəyişikliklərdən ən maraqlı və eyni zamanda ən çox müzakirə doğuran sahələrdən biridir. Süni intellektin ədəbi yaradıcılıqda istifadə olunması, yeni yazı texnikalarının və eksperimental narrativ formaların meydana çıxmasına səbəb olmuşdur [4].

Süni intellektin təqdim etdiyi imkanlar ədəbiyyatın məzmun, forma və müəlliflik anlayışlarını yenidən düşünməyə vadar edir. Sİ əsaslı dil modelləri məsələn, "GPT-3" və "GPT-4" kimi generativ modellər artıq şeir, hekayə, roman və ssenarilər kimi müxtəlif janrlarda

mətnlər yarada bilir [7]. Bu, bir tərəfdən yaradıcılıq anlayışının genişlənməsi, digər tərəfdən isə ədəbi dəyərin və müəlliflik hüquqlarının yenidən müzakirəyə çıxarılması deməkdir [12].

Bu məqalənin məqsədi süni intellektin ədəbi yaradıcılıq prosesinə təsirini araşdırmaq, yeni yaranan narrativ formaları təhlil etmək və bu prosesin etik, estetik və mədəni nəticələrini dəyərləndirməkdir. Məqalədə həm qlobal praktikalar, həm də Azərbaycan konteksti nəzərdən keçiriləcəkdir.

## 2. Süni intellekt və ədəbi yaradıcılıq

Ədəbi yaradıcılıq uzun müddət insan təxəyyülünün və fərdi ifadə imkanlarının məhsulu kimi qəbul olunmuşdur. Lakin son illərdə süni intellekt texnologiyalarının inkişafı bu ənənəvi təsəvvürləri dəyişdirməkdədir. Xüsusilə generativ dil modelləri məsələn, OpenAİ tərəfindən hazırlanmış "GPT-3" və "GPT-4" - insan müdaxiləsi olmadan da mətn yarada biləcək səviyyəyə çatmışdır [4]. Bu modellər milyonlarla mətn nümunəsi üzərində təlim alaraq, kontekstə uyğun hekayələr, şeirlər, esse və digər ədəbi janrlarda mətnlər yarada bilirlər [1].

2021-ci ildə nəşr olunmuş "Literature and Artificial Intelligence" adlı kitabın müəllifi Peter Hammond süni intellektin ədəbi yaradıcılığa təsirini araşdırmış və Sİ tərəfindən yaradılan mətnlərin yaradıcı sayılıb-sayılmaması məsələsini müzakirə etmişdir. O, süni intellektin təqdim etdiyi alternativ fikirlər və dil strukturlarının yazıçıya "öz dilini bir güzgüdə görmək" imkanı yaratdığını qeyd etmişdir. Lakin Hammond bu prosesin "yaradıcılıq" olub-olmadığını sual altına qoyur və süni intellektin yaradıcı mətnlər istehsal etmə potensialını, bu mətnlərin insan təxəyyülü ilə müqayisədə necə qiymətləndirilməli olduğunu və ədəbi tənqidin bu yeni formaya necə yanaşmalı olduğunu təhlil etmişdir.

Süni intellektin ədəbi yaradıcılıqda tətbiqi bir neçə formada həyata keçirilir: Yazıçı və şairlər ideya tapmaq, süjet qurmaq və ya dil strukturunu yoxlamaq üçün Sİ-dən istifadə edirlər. Hammond [7] öz məqaləsində süni intellektin (Sİ) yazıçı və şairlər üçün yaradıcılıq aləti kimi istifadəsini ətraflı şəkildə təhlil etmişdir. O, Sİ-in yaradıcı prosesdəki rolunu, onun imkanlarını və məhdudiyyətlərini araşdırmışdır. Hammond həmçinin, Sİ alətləri yazıçı və şairlərə ideya tapmaq, süjet qurmaq və dil strukturunu yoxlamaq kimi sahələrdə kömək edə bilməsini qeyd etmişdir. Bu texnologiyalar yazıçıların yaradıcılıq prosesini sürətləndirə və yeni perspektivlər təqdim edə bilər. Lakin Hammond Sİ-nin istifadəsinin bəzi məhdudiyyətlərinin mövcud olmasını da vurğulayır. O, Sİ tərəfindən yaradılan mətnlərin bəzən orijinallıq və emosional dərinlik baxımından insan yaradıcılığından geri qaldığını qeyd edir. Bu səbəbdən, Sİ-nin yazıçı və şairlər üçün bir alət kimi istifadəsi insan yaradıcılığını tam əvəz etməkdən çox, onu tamamlayan bir vasitə kimi qəbul edilməlidir. Hammondun fikrincə, Sİ-nin ədəbi yaradıcılıqda istifadəsi yazıçı və şairlərə yeni imkanlar təqdim edir və bu texnologiyanın istifadəsi etik və estetik məsələləri də gündəmə gətirir. Alimin irəli sürdüyü "süni intellektin yaratdığı mətnlərin yaradıcılıq kimi qəbul olunub-olunmaması" fikri müasir ədəbiyyatşünaslıq və süni intellekt tədqiqatlarının kəsişməsində aparılan elmi diskursun əsas məqamlarından birinə çevrilmişdir.

Bu baxımdan süni intellektdə "yaradıcılıq" anlayışı fərqli məna daşıyır: Sİ mətnləri keçmiş məlumatlara əsasən, statistik ehtimallarla qurur. Halbuki insan yaradıcılığı fərdi təcrübə, duyğu, niyyət və simvolik düşüncə ilə bağlıdır. Bu baxımdan Hammond süni intellektlə yazılan mətnlərin müəlliflik hüququnu da müzakirəyə açır: "Sİ tərəfindən yaradılan bir mətnin müəllifi kimdir? Proqramı quran şirkət? Onu istifadə edən insan? Yoxsa heç kim?" Burada müəlliflik və intellektual mülkiyyət məsələləri əhəmiyyət qazanır. O, deyir ki, müəlliflik yalnız texniki yaradılma deyil, həm də niyyət və mənəvi məsuliyyət tələb edir, bu isə Sİ-də yoxdur. Eyni zamanda o, bəzi yazıçıları Sİ-nin yazıçıları əvəz edə biləcəyindən narahat olduğunu qeyd edir. Lakin özü bu fikrə tənqidi yanaşır və belə deyir: "Sİ insanı əvəz etmir, lakin yazı prosesinin bəzi texniki mərhələlərində onu tamamlayır". Məsələn, Sİ süjetin skeletini qura, personaj adı təklif edə və ya yazı stilinə uyğun mətn təklif edə bilər, lakin bu insanın dərinlikli ideya və niyyətini əvəz etmək iqtidarında deyil. Hammond da vurğulayır ki, Sİ tərəfindən yazılan bir mətnin texniki olaraq düzgün və axıcı olması onu dərhal "ədəbi" etmir. Ədəbi dəyər "kontekstual zənginlik, emosional rezonans, ictimai və fəlsəfi məna qatları" ilə ölçülür. Bu isə hələ ki, yalnız insan tərəfindən tam şəkildə təmin oluna bilir. Süni intellekt yazıçı və şair üçün əvəzolunmaz deyil, lakin tamamlayıcı və məhsuldarlığı artıran bir vasitə ola bilər. Buradan belə nəticə hasil olur ki, süni intellektin sadəcə statistik ehtimallarla işləməsi və subyektiv niyyətdən məhrum olması yaratdığı mətnlərdə orijinallıq və emosional dərinlik baxımından çatışmazlıqların mövcudluluğunu üzə çıxarır. Bununla belə Sİ-nin təqdim etdiyi dil modelləri, üslub variantları və ideya strukturları, yazıçının öz yaradıcılığını yenidən düşünməsi üçün katalizator rolunu oynaya bilər. Ədəbi prosesin texniki mərhələlərində məsələn, süjetin qurulması, dilin təmizlənməsi və ya alternativ ifadə formalarının axtarışında bu texnologiyalar yazıçıya zaman və enerji qazandıra bilər. Bu baxımdan, Hammondun "Sİ insanı əvəz etmir, lakin yazı prosesinin bəzi texniki mərhələlərində onu tamamlayır" fikri ilə razıyıq və onu təməl prinsip kimi qəbul edirik.

Vacib məqamlardan biri olaraq qeyd etmək lazımdır ki, müəllifin qeyd etdiyi "ədəbi dəyər" göstəriciləri kontekstual zənginlik, emosional rezonans, fəlsəfi və ictimai məna qatları - hələlik yalnız insan təfəkkürü və təcrübəsi ilə dərinləşdirilə bilir. Süni intellekt bu qatlara texniki vasitə olaraq xidmət edə bilər, lakin onları meydana çıxarmaq üçün hələ də insana ehtiyac var. Beləliklə müəllif və Sİ-nin birgə yaratdığı mətnlər yeni bir "hibrid müəlliflik" anlayışını meydana gətirir. R. MakKinnon [12] tərəfindən 2022-ci ildə "Digital Humanities Quarterly" jurnalında dərc olunmuş "Who owns a poem written by AI rethinking authorship in the digital age" adlı məqaləsi süni intellekt və müəlliflik anlayışı sahəsində əhəmiyyətli bir tədqiqatdır. Bu məqalədə MakKinnon, süni intellektin ədəbi yaradıcılıqda istifadəsi nəticəsində ortaya çıxan müəlliflik və intellektual mülkiyyət məsələlərini araşdırmışdır. O, Sİ tərəfindən yaradılan mətnlərin müəllifliyinin kimə aid olduğunu və bu yeni yaradıcı proseslərin ənənəvi müəlliflik anlayışını necə dəyişdirdiyini müzakirə edərək süni intellektlə (Sİ) insanın birgə yaratdığı mətnlərdə müəlliflik anlayışının necə dəyişdiyini və bu yeni əməkdaşlıq formasının ədəbi yaradıcılığa təsirini müzakirə edir. O, bu fenomeni "hibrid müəlliflik" adlandırır və bu

kontekstdə bir neçə əsas məsələni önə çıxarır: MakKinnon qeyd edir ki, Sİ-nin yaradıcı prosesdə iştirak etməsi ənənəvi müəlliflik anlayışını mürəkkəbləşdirir. Əgər bir mətnin yaradılmasında həm insan, həm də Sİ iştirak edirsə, bu zaman müəlliflik hüququ kimə məxsusdur? Bu sual, hüquqi və etik baxımdan yeni müzakirələrə səbəb olur. Məqalədə vurğulanır ki, Sİ tərəfindən yaradılan mətnlərdə orijinallıq və yaradıcılıq məsələləri də mübahisəlidir. Sİ-nin mətnləri mövcud məlumatlara əsaslanaraq yaratması, onların nə dərəcədə orijinal və yaradıcı olduğunu sual altına alır. MakKinnon həmçinin, Sİ-nin ədəbi yaradıcılıqda istifadəsinin etik və estetik nəticələrini də araşdırır. O, bu əməkdaşlığın ədəbi dəyəri və oxucu ilə əlaqəsi baxımından nə kimi təsirlərə səbəb ola biləcəyini müzakirə edir. Nümunə olaraq, amerikalı yazıçı Ross Qudvinin [5] süni intellektlə birgə yaratdığı "Yol 1" (1 the Road) romanı göstərilə bilər. Ross Qudvin özünü "gonzo məlumat alim"i adlandıran bir şəxsdir. O, keçmişdə Barak Obamanın prezidentliyi dövründə "ghostwriter" (qələm əsgəri) kimi çalışıb. Qudvin maşın öyrənməsi, təbii dilin işlənməsi və yaradıcı texnologiyalar sahəsində fəaliyyət göstərən bir sənətçi və texnoloqdur.

"1 the Road" əsəri süni intellektin yaradıcı potensialını nümayiş etdirən önəmli bir layihədir. Bu layihə Ross Qudvin tərəfindən həyata keçirilmişdir. Qudvin, Kadillak markalı bir avtomobili "GPS" cihazı, mikrofon, saat və dam kamerası ilə təchiz edərək, bu avadanlıqları portativ bir süni intellekt yazı maşınına bağlamışdır. Ross Qudvin tərəfindən hazırlanmış və süni intellekt tərəfindən yaradılmış "1 the Road" əsəri Amerika ədəbiyyatının kanonik formalarına və mədəni kodlarına yönəlmiş poetik və estetik bir müdaxilə olaraq Cek Keruakın kult statusu qazanmış "Yolda" romanına aydın intertekstual referensiyadır. Lakin burada heç də təqlid olmayan yeni bir yazı dili və struktur ortaya çıxır. "Yolda" romanı "Beat nəsli"nin "azadlıq axtarışı", konformizmdən qaçış və "yolda olmaq" motivlərini simvolizə edirdi. Qudvin isə süni intellekt vasitəsilə bu motivi yenidən qurur, burada avtomobil süni intellektin yazı alətidir, yəni "qələm rolunu" oynayır. O, Nyu-Yorkdan Nyu-Orleansa doğru səyahət edərkən süni intellekt bu avadanlıqlardan gələn məlumatları emal edərək mətnlər yaratmış Cek Keruakın "Yolda" (On the Road) romanının 120 futluq ilk əlyazmasına işarə olaraq mətnləri 127 fut uzunluğunda kassa lentinə çap etdirmişdir.

Əsər yol romanı janrının ənənəvi strukturunu və dəyərlərini dəyişərək süni intellektin ədəbi yaradıcılıq sahəsindəki imkanlarını nümayiş etdirir. Bu layihə, həmçinin "IDFA DocLab Storytelling" mükafatını qazanmışdır. Avtomobilə quraşdırılmış süni intellekt sistemlərinin toplanmış məlumatlara əsasən, real zamanda yazdığı mətnlərdən ibarət bu romanda yazıçının rolu süjetin ideyasını və kontekstini təmin etmək, süni intellektin rolu isə mətni istehsal etməkdir. Bu baxımdan həm texnoloji, həm də ədəbi eksperimentin məhsulu kimi ortaya çıxan əsərin "yazarı" süni intellekt olsa da yaradıcılıq prosesində insan subyektinin iştirakı da danılmazdır. Bu isə hibrid yaradıcı subyekt anlayışının formalaşmasına gətirib çıxarır.

Əsərin yazılma prosesi zamanı Qudvinin özü "GPS", kamera və mikrofon vasitəsilə sistemə vizual və səsli məlumat ötürür, həmçinin süni intellektin "bədii zövqünü"

formalaşdırmaq üçün ona 200-dək əl ilə seçilmiş kitab təqdim edir. Burada Sİ öncədən proqramlaşdırılmış poetik alqoritm kimi çıxış edərək, müəllifliklik anlayışının klassik "müəllif" fiqurundan çıxaraq proqramçı-kurator funksiyasına keçməsini fakt olaraq üzə çıxarır.

"1 the Road" romanı həm məzmun baxımından, həm də formaca ənənəvi yol romanından fərqlənir. Zamanla bölünən qısa müşahidələr, poetik və bəzən mənasız frazalar, məkanın deyil, zamanın strukturlaşdırıcı element kimi çıxış etməsi yeni bir narrativ dinamika formalaşdırır. Sİ-nin cümlə quruluşundakı təkrarlar, sintaktik pozuntular və bəzən uşaqvari sadəlik isə oxucuda qəribə poetik təsir yaradır. Süni intellektin "şüuru" olmasa da onun məhsulu insan şüurunu reflektiv hala gətirir, oxucu hər bir cümlədə anlam axtarır və bu proses öz-özlüyündə yaradıcılığın bir forması olaraq dəyərləndirilə bilər.

### 3. Yeni poetika və "post-insan" müəlliflik modeli

Məhz süni intellektin insan təxəyyülünə bənzəməyən yol boyu görüntülərdən, coğrafi koordinatlardan və zaman məlumatından "ilham alaraq" yazdığı poetik fraqmentlər toplusu olan "1 the Road" romanı tamamilə yeni bir poetika yaradır. Burada struktur və məna mütləq deyil, təsadüf və mexaniki təkrar isə poetik yük daşıyır. Məsələn, "saat doqquzun iyirmi beşi idi" kimi təkrar olunan cümlələrdə zaman göstəriciləri ilə süni intellekt romanı fiziki məkandan çox zamansal axında qurur. Bu isə bizə post-insan müəlliflik modelinə keçidi göstərir: burada müəllif insan ilə texnoloji sistemin birgə iştirak etdiyi hibrid intellektdir. Məsələn, "Su qaranlıqdır və sanki bir qabdır, ulduzlar hələ də partlayır" (The water is dark and seems to be a container and the stars are still breaking out) cümləsində poetik və metaforik strukturlar açıq şəkildə müşahidə olunur. Lakin klassik mənada bu ifadələr "niyyətli" deyil, yəni süni intellekt burada şüurlu surətdə simvolik dərinlik və ya mövzulararası əlaqələr yaratmağa yönəlməyib. Əksinə belə ifadələr daha çox təsadüfi kombinasiyalar və statistik ehtimalların nəticəsi kimi meydana gəlir. Bununla belə, məhz bu niyyətsizlik və mexaniki quruluş Sİ-nin özünəməxsus poetikasını formalaşdırır. Belə mətnlər oxucunun şüurunda fərqli assosiasiyalar doğuraraq məna istehsalını onun interpretativ fəaliyyətinə həvalə edir. Nəticədə, süni intellektin istehsal etdiyi poetik mətnlər klassik bədii niyyətin məhsulu olmasa da, yeni və qeyri-ənənəvi estetik təcrübələr üçün zəmin yaradır.

"Maşın özü qələmdir" ("The car itself is the pen") metaforası süni intellektin fiziki alətlə birləşərək məlumatı ədəbi mətnə çevirmə qabiliyyətini vurğulayır. Beləliklə, yolda olmaq artıq insan təcrübəsi ilə üzvi vəhdət təşkil edərək alqoritmik müşahidə və poetik rekonstruksiya aktına çevrilir. Eyni zamanda qeyd etmək lazımdır ki, Qudvinin Sİ modelini təlimləndirərkən ona təxminən 200 klassik əsər və amerikan ədəbiyyatının seçmə nümunələrini daxil etməsi süni intellektin Amerikan ədəbi yaddaşını "oxuyaraq" və statistik olaraq model quraraq özünəməxsus poetik dil formasına malik olan yeni mətn yaratması imkanını yaratmışdır. Misal olaraq mətndə verilmiş - "Bir su parçası hələ də formalaşmağa çalışırdı və dodaqları nə qədər titrəsə də, sözlər çıxmırdı, uzaqda sükut hökm sürürdü" ("A patch of water was still looking for some organization and his lips were falling in vain, a distant silence") tipli cümlələrdə həm

poetiklik, həm də qeyri-adi metaforik əlaqələr hiss edilməsini, insan yazısından fərqli semantik baxımdan qeyri-sabit, lakin estetik cəhətdən cazibədar bir yaradıcılıq nümunəsinin ortaya çıxmasını göstərə bilərik. Bununla belə, Sİ tərəfindən yaradılmış ədəbi mətnlərin müəlliflik hüququ, yaradıcılıq dəyəri və orijinallığı məsələləri ciddi müzakirə obyektinə çevrilmişdir. Süni intellektin mətnləri texniki baxımdan təsirli olsa da, onlar bəzən dərinlik, emosional qat və simvolik düşüncə baxımından insan yaradıcılığına nisbətən zəif qala bilər [11].

Sİ-nin təqdim etdiyi interaktiv mətn modelləri oxucunu aktiv subyekt halına çevirir. Bu yeni formalar oxucuya sual verir, davamını yazmağı təklif edir, personajla dialoqa girmə imkanı yaradır. Beləliklə, bədii mətnin statik obyekt yox, dinamik proses olduğu yeni konsepsiya təklif olunur. İnteraktiv Sİ-narrativlər və "choose-your-own-story" sistemləri gələcəyin ədəbiyyatını formalaşdırır.

Ədəbiyyatşünaslar və filoloqlar süni intellekti yeni yaradıcı vasitə kimi qəbul etməli, onun imkanlarını araşdırmalı, eyni zamanda insan yaradıcılığının özünəməxsusluğunu qorumağa çalışmalıdırlar. Sİ texnologiyaları ədəbiyyata yeni ideyalar gətirə, yazı blokadasını aradan qaldıra, mətnin təhlili üçün alətlər təqdim edə bilər. Məsələn, Azərbaycan alimləri belə yeni üsullar tətbiq edərək çağdaş yazıçılar üçün "virtual köməkçi" və "ChatGPT"-nin köməyi ilə milli üslubda nəsr nümunələri yaratmışlar. Buna baxmayaraq, Süni intellekt əsərlərinin orijinallığı məsələsi ciddi müzakirə mövzusudur. Elmi mənbələr göstərir ki, Sİ əvvəlcədən toplanmış mətnlər əsasında işləyir və insana xas şəxsi səs və duyğu qatmadan məzmun formalaşdırır. Böyük alimlər (məsələn, Boden və başqaları) yaradıcılığı yeniliyi, dəyəri və təəccübü özündə birləşdirən proses kimi təsvir etsələr də, süni intellekt tərəfindən yaradılan ədəbi nümunələrin emosional dərinliyi və "özünəməxsus fərdi toxunuş" baxımından natamam olduğu vurğulanır. Bu baxımdan ədəbiyyatçıların və tənqidçilərin Sİ əsərlərini müstəqil analiz etmələri onların məzmun və tərz xüsusiyyətlərini incələmələri önəmlidir. Eyni zamanda ənənəvi ədəbi tənqid metodları süni intellekt məhsullarının qiymətləndirilməsində kifayət etmədiyi üçün yenilikçi yanaşmalar tələb olunur. Beynəlxalq nümunələrdən bəlli olur ki, bədii yaradıcılıq sahəsində Sİ-dan istifadə spektrlərindən biri kimi qəbul edilir: bəzi tədqiqatçılar Sİ-nı yaradıcılığın dəyərli "tərəfdaşı" hesab edərkən digərləri onun orijinallıq və dərinlik baxımından məhdudiyyətlərinə diqqət çəkir [6].

Nəticədə Azərbaycanda filoloqlar və ədəbiyyatşünaslar belə yanaşma formalaşdırmalıdırlar ki, süni intellekt vasitələrinin təklif etdiyi texniki yeniliklərdən yararlanmaq mümkün olsa da, insan yaradıcılığının mahiyyətini qorumaq əsas şərtdir. Ədəbi ictimaiyyət Sİ məsələlərində fəal olmalı, həm yeni imkanları qiymətləndirməli, həm də yaranan təhlükələri müəlliflik hüququnu pozma, etik narahatlıqları nəzərə almalıdır. Beynəlxalq təcrübədə olduğu kimi, ədəbiyyat dərnəkləri və jurnallarda müzakirələr aparılmalı, Azərbaycan ədəbiyyatında süni intellektlə bağlı məqalələr dərc edilməli, ortaya çıxan məsələlər barədə maarifləndirici konfranslar təşkil olunmalıdır. Beləliklə, milli elmi diskursda süni intellekt

yaradıcılığına rasional-elmi tənqidi yanaşma formalaşdırılmalı, kreativ təsəvvürün insanlıq irsi kimi qorunması prioritet qalmalıdır.

Azərbaycanda süni intellektin yaratdığı mətnlərin müəlliflik hüququ baxımından statusu indiyədək konkret normativlə tənzimlənməyib. Ölkənin mövcud əqli mülkiyyət qanunvericiliyinə görə "əsər" anlayışı insan müəllifin fərdi yaradıcılıq məhsuludur. Belə çıxır ki, tamamilə maşın tərəfindən yaradılan mətnlər Berne Konvensiyasının tələblərinə əsasən, qorunmamalıdır. Məsələn, ABŞ praktikası Sİ-nın insansız yaratdığı əsərləri müəllif hüququna salmır, 2023-cü ildə məhkəmə qərarları və Müəllif Hüquqları İdarəsinin bəyanatı Sİ məhsullarının hüquqi mülkiyyətinin olmadığını təsdiqləmişdir. Avropa İttifaqında isə ümumi yanaşma odur ki, avadanlıq tərəfindən yaradılan əsər üçün insanın "öz intellektual fəaliyyəti" lazımdır. Məsələn, Almaniya və Fransa qanunları yaradıcılığı insan "fərdi səyləri"ndən asılı hesab edir, avtomatik generasiya edilən mətni müstəqil əsər kimi qəbul etmir. Buna görə Azərbaycan da insan iştirakını əsas götürən model tətbiq edə bilər. Britaniyada isə xüsusi "kompüterlə yaradılan əsər" kateqoriyası var: bu halda müəllif kimi əsəri "yaradan tərtibatçı" şəxs tanınır. Azərbaycanda da belə bir yanaşma məntiqi görünür: məsələn, müəllif süni intellekt alətinin işləməsini təmin edən şəxs (məsələn, mətnə prompt verən insan) ola bilər. Çin məhkəmələri isə süni intellekt əsərlərini insanın fəaliyyəti kontekstində qiymətləndirərək qorumağa nail olublar: mətnin keyfiyyətinə görə qərar verilib və müəllif hüquqları Sİ modelinin yaradıcısına deyil, input verən insana aid edilib. Bu kimi nümunələrə əsaslanaraq, Azərbaycanda da süni-intellekt məhsulları ilə bağlı müəllif hüququ çərçivəsi formalaşmalıdır. Bir tərəfdən, Berne Konvensiyası xətti ilə əsas prinsip müəllifin insan olması qorunmalı, digər tərəfdən isə Sİ alətlərindən istifadəni stimullaşdırmaq üçün İngiltərə nümunəsi kimi kompüter əsərləri kateqoriyası yaradıla, ya da Çin təcrübəsinə bənzər "əhəmiyyətli insan girişi" meyarı müəyyən edilə bilər.

**Tədris və praktik tətbiq.** Ədəbiyyat tədrisində və yazı bacarıqlarının öyrədilməsində süni intellekt alətlərinin tətbiqi həm yeni imkanlar, həm də çətinliklər yaradır. Müsbət cəhət ondan ibarətdir ki, "ChatGPT" kimi sistemlər şagirdlər üçün fikirləri strukturlaşdırmaqda, mövzular üzrə geniş informasiya toplamaqda yardımçı ola bilir. Məsələn, xarici təcrübədə tələbələr "ChatGPT"- dən mətnin mövzusunu müxtəlif aspektlərdən açmağa köməkçi kimi istifadə edir, beləliklə, tədqiqat sualını daha yaxşı anlamış olur və həmin mövzunu daha səmərəli araşdırır. Yaradıcılıq dərslərində isə Sİ-nın generasiya etdiyi nümunə mətnlər üzərində işə başlanılır: müəllim şagirdlərə süni intellektin yazdığı hekayə və ya dialoq verə, onlardan bu struktur əsasında öz versiyalarını yaratmağı xahiş edə bilər. Bu cür tapşırıqlarda tələbələrin fərdi fikir və stil əlavə etməsi vacibdir. Bu baxımdan onların işi Sİ-nin köməyi ilə şəxsi töhfələr əlavə olunmuş yaradıcılıq prosesinə çevrilir. Digər tərəfdən ən ciddi problem - akademik dürüstlük məsələsi olaraq süni intellekt şagirdlərə yazını özündə hazır verməklə asanlıq yaratsa da, bu yazı bacarığının zəifləməsinə gətirib çıxara bilər. Müəllimlər və valideynlər "ChatGPT" istifadəsinin sərhədlərini müəyyən etməli, tələbələrə onun düzgün və etik istifadəsini öyrətməlidirlər. Belə ki, real sinif praktikasında rəhbərlik olaraq buraxılış işlərinə süni intellekt

cavabı əl ilə əlavələrin edilməsini tələb etmək, cavab tapşırıqlarını Sİ ilə yoxlamaq kimi metodlar tətbiq oluna bilər. Beynəlxalq metodik tövsiyələrdə qeyd olunur ki, şagirdlərə Sİ-nin rolu daşınmaz resurs olmadığını anladaraq "Sİ-nin rolu alət olaraq izah olunmalı, ancaq onun yardımının faydalı və etikal sərhədləri vurğulanmalıdır"[10]. Müəllimlər süni-intellekt əsasında hazırlanan mətnlərdəki səhvləri müzakirə edərək tələbələrə yanlış məlumatdan yayınmağı öyrədə, eyni zamanda onların hərtərəfli düşünmə qabiliyyətini inkişaf etdirən tapşırıqlar hazırlaya bilərlər. Məsələn, şagirdlərə "ChatGPT"-nin hazırladığı xülasələri analiz edib bunun xeyir və çatışmazlıqlarını tapmağı tapşırmaqla onların tənqidi fikirləşməsi güclənə bilər.

Azərbaycanda da bu təcrübələrdən yararlanılmalıdır: müəllimlər süni intellektlə bağlı yeniliklərdən xəbərdar edilməli, dərslik və metodik vəsaitlərdə Sİ-nin yeri müəyyənləşdirilməli, məktəb və universitet kurikulumlarına "rəqəmsal savadlılıq" mövzusu daxil edilməlidir. Məsələn, müəllim "ChatGPT"- dən Azərbaycan ədəbiyyatı nəzəriyyəsi ilə bağlı müzakirə sualları almaq, şagirdlərin yaratdığı esse və ya şeir üzərində qrammatik redaktə üçün süni yardım alması variantı var. Hər halda, süni intellektli vasitələr tədrisdə müəllimin yerini tam tutmamalıdır - onlar yalnız qiymətli əlavə resurs kimi istifadə olunmalı, əsl öyrənmə və yaradıcı işə rəvac verməlidir [3].

**Nəticə.** Aparılmış araşdırmalar süni intellektin ədəbi yaradıcılığa təsirinin çoxşaxəli və mürəkkəb olduğunu bir daha göstərdi. Müasir generativ modellər - xüsusilə "GPT-3" və "GPT-4" kimi dil modelləri insan müdaxiləsi olmadan da poetik və narrativ mətnlər yarada bilir. Lakin bu mətnlər hələ də insan təxəyyülünün və şüurlu niyyətin yaratdığı estetik, emosional və fəlsəfi dərinliyə tam sahib deyil. Ədəbi dəyərin formalaşmasında "kontekstual zənginlik", "emosional rezonans" və "simvolik qatlar" kimi ənənəvi meyarlar süni intellekt məhsullarında ya zəif, ya da təsadüfi şəkildə meydana çıxır. Bununla yanaşı qeyd etmək lazımdır ki, Sİ əsərləri yazıçı və şairlər üçün yeni imkanlar təqdim edərək xüsusilə ideya istehsalında, dilin transformasiyasında və mətnin strukturlaşdırılmasında katalizator rolunu oynayır. Bu da "hibrid müəlliflik" modelini aktuallaşdırır və müəlliflik hüququ, intellektual mülkiyyət və estetik məsuliyyət kimi mövzuları yenidən düşünməyi tələb edir.

Metodoloji baxımdan məqalədə süni intellektin ədəbi yaradıcılıqdakı rolu barədə nəzəri və müqayisəli yanaşma diqqətə çatdırılmışdır. Hammond, MakKinnon, Manoviç kimi müasir tədqiqatçıların yanaşmaları və Ross Qudvinin "1 the Road" eksperimental layihəsi kimi ədəbi nümunələr əsasında bu mövzunun həm estetik, həm də hüquqi aspektlərini işıqlandırılmışdır. Süni intellekt texnologiyaları eyni zamanda mədəniyyətlərin özünüifadəsinə təsir edən ideoloji vasitə kimi də çıxış edir.

Gələcək tədqiqatlar üçün əsas istiqamətlər kimi aşağıdakıları misal göstərmək olar:

- Süni intellekt əsərlərinin estetik dəyərinin ölçülməsi üçün yeni kriteriyaların hazırlanması (məsələn, "alqoritmik orijinallıq", "struktur novatorluğu" və s.);
- Müxtəlif dillərdə və lokal mədəniyyətlərdə Sİ-nin yaratdığı mətnlərin müqayisəli təhlili, bunun mədəni homogenləşməyə təsirinin qiymətləndirilməsi;

- Müəlliflik hüququnun hibrid müəlliflik modellərinə necə adaptasiya oluna biləcəyinə dair hüquqi-normativ tədqiqatlar;
- Ədəbiyyat tədrisində süni intellektdən yaradıcı metod kimi istifadənin pedaqoji və metodoloji nəticələrinin araşdırılması.

Beləliklə süni intellektin ədəbi yaradıcılıqdakı rolu texnoloji yenilik olaraq estetik, etik və mədəni diskurs üçün yeni perspektivlər açan mürəkkəb fenomen kimi qiymətləndirilməlidir.

## Ədəbiyyat


1. Beniwal A. (2023), AI and creative writing: The evolving dynamics. International Journal of Artificial Intelligence Research.
2. Cooley LLP (2024, 29 January), Copyright ownership of generative AI outputs varies around the world.
3. Elm və Təhsil Nazirliyi (2025, 16 Aprel), Akademik Əli Abbasov: Süni intellekt bədii yaradıcılığın inkişafında yeni səhifələr açır.
4. Floridi L., Chiriatti M. (2020), GPT-3: Its nature, scope, limits and consequences. Minds and Machines, Vol.30, No.4, 681-694.
5. Goodwin R. (2018), 1 the Road. New York.
6. Guyaunt V. (2023), Session Recap: AI in Teaching Writing and Literature. GoReact webinar, ReAction Virtual.
7. Hammond P. (2021), Literature and Artificial Intelligence. London: Academic Press.
8. https://copat.gov.az/en/news/kamran-imanov-spoke-at-the-session-of-the-world-intellectual-property-organization
9. Kerouac J. (1957), On the Road. New York: Viking Press.
10. Khan A.A., Shabir R., Abdullah M. (2025), Literature in the age of AI: How artificial intelligence is reshaping literary creation and criticism. Journal of Social Sciences and Economics, Vol.4, No.1, 77-89.
11. Manovich L. (2020), AI Aesthetics. Moscow: Strelka Press.
12. McKinnon R. (2022), Who Owns a Poem Written by AI? Rethinking Authorship in the Digital Age. Digital Humanities Quarterly.
13. Mikhailyuk, Sorokolat & Partners (2024, 19 August), Specifics of objects created by artificial intelligence: Legal status and copyright issues.
14. Premkumar B. (2024), The impact of artificial intelligence on literary creation and criticism. International Journal of Language, Literature and Culture, Vol.4, No.4, 37-41.